**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Bolqarıstanın Qida Təhlükəsizliyi Agentliyi (BFSA) arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində birbaşa əlaqələr qurulmuş, əməkdaşlığın dərinləşdirilməsi üzrə mütəmadi görüşlər və texniki mübadilələr həyata keçirilir.
- **2025-ci il 30 oktyabr** tarixində Bolqarıstanın paytaxtı Sofiya şəhərində baş tutmuş "İqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Bolqarıstan Hökumətlərarası Komissiya"nın 7-ci iclası və Bolqarıstan-Azərbaycan biznes forumunda Agentliyin nümayəndəsinin iştirakı təmin olunmuşdur. İclasın yekununda imzalanmış Protokolda qida təhlükəsizliyi sahəsində əməkdaşlığa dair bənddə Bolqarıstanın Qida Təhlükəsizliyi Agentliyi ilə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində əməkdaşlığın dərinləşdirilməsi, həmçinin qida məhsulları, baytarlıq və fitosanitariya nəzarəti altında olan məhsulların idxal və ixracının həyata keçirilməsi, qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində əməkdaşlığın genişləndirilməsi üzrə müzakirələrin aparılması üçün Bolqarıstan Respublikasının müvafiq qurumları ilə görüşlərin keçirilməsi kimi müddəalar əlavə olundu.
- **2025-ci il 23 iyul** tarixində AQTA ilə BFSA-nın nümayəndələri arasında onlayn görüş keçirilib. Görüş zamanı Bolqarıstandan idxal olunan məhsullara dair razılaşdırılmış baytarlıq sertifikatları, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanundan irəli gələn tələblər, eləcə də hazırkı dövrədək ölkəmizə yüksək riskli məhsul idxalını həyata keçirə bilməsi üçün müraciət etmiş və təsdiqlənmiş Bolqarıstan müəssisələri barədə məlumat qarşı tərəfin diqqətinə çatdırılmış, laboratoriya sahəsində təcrübə mübadiləsi daxil olmaqla, qida təhlükəsizliyinin müxtəlif aspektləri üzrə əməkdaşlıq imkanları müzakirə edilib.

- **2025-ci il 27 yanvar** tarixində buğa toxumuna dair baytarlıq sertifikatı razılaşdırılıb.

- **2023-cü il 27 iyul** tarixində arı ailələri, ana arılar və bağlamalar, faydalı həşəratlar və etnomofaqlara dair baytarlıq sertifikatı razılaşdırılıb.

- **2021-ci il 9 mart** tarixində damazlıq və istifadə üçün iribuynuzlu heyvanlara dair baytarlıq sağlamlıq sertifikatı razılaşdırılıb.

- **2020-ci il 12 may** tarixində süd və süd məhsullarına dair baytarlıq sertifikatı razılaşdırılıb.

- "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunluğu yoxlamaq məqsədilə hazırkı dövrədək Bolqarıstan Respublikasının 3 müəssisəsində qiymətləndirmə aparılmış və təsdiq olunmuşdur:

- 2023-cü ildə Oscietre Commerce LTD balıq və dəniz məhsulları emalı və istehsalı müəssisəsində;
- 2024-cü ildə Biovet Joint Stock Company yem və yem əlavələri məhsulları emalı və istehsalı müəssisəsində, həmçinin M.J.DAIRIES LTD. və Sheepka 99 süd və süd məhsulları emalı müəssisələrində.